

# Taxıl haqqında

# Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikasında taxıl istehsalının, tədarükünün və bazarının təşkilinin, taxılın və taxıl emalı məhsullarının keyfiyyətinin idarə edilməsinin hüquqi əsaslarını müəyyən edir.

## *I fəsil. Ümumi müddəalar*

### *Maddə 1. Əsas anlayışlar*

1.0. Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. taxıl — ərzaq, toxum, yem və texniki məqsədlər üçün istifadə edilən dənli və dənli-paxlalı bitkilərin dənləri;

1.0.2. taxıl emalı məhsulları — un, yarma, çörək, çörəkbişirmə və makaron məmulatları, qarışıq yemlər və taxıl emalından çıxan əlavə məhsullar;

1.0.3. taxıl məhsulları — taxıl və taxıl emalı məhsulları;

1.0.4. taxılın və taxıl emalı məhsullarının keyfiyyəti—taxıl məhsullarının istehlak xassələrinin qüvvədə olan texniki, ekoloji, sanitariya, baytarlıq və fitosanitar standartlara, normalara, qaydalara və tələblərə (bundan sonra standartlara və tələblərə) uyğunluğu.

### *Maddə 2. Taxıl haqqında Azərbaycan Respublikasının qanunvericiliyi*

2.1. Taxıl haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, bu Qanunla əlaqədar qəbul edilmiş digər normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının aqrar qanunvericiliyindən ibarətdir.

2.2. Taxıl emalı məhsullarının istehsalının və bazarının təşkili, keyfiyyətinin idarə edilməsi qaydaları bu Qanunla yanaşı, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

2.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə taxıl istehsalının, tədarükünün və bazarının təşkili, taxıl məhsullarının keyfiyyətinin idarə edilməsi barədə müəyyən olunmuş qaydalar bu Qanunda nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

### *Maddə 3. Taxıl haqqında qanunvericiliyin məqsəd və vəzifələri*

3.1. Taxıl haqqında qanunvericiliyin məqsədi ölkədə taxılçılığı və taxıl məhsullarının emalını inkişaf etdirməklə ölkə istehlakçılarının xarici taxıl bazarından asılılığını azaltmaqdan, sahənin inkişafında yerli istehsalçılara əlverişli hüquqi, iqtisadi və təşkilati mühitin formalaşdırılmasından ibarətdir.

3.2. Taxıl haqqında qanunvericiliyin vəzifələri taxılçılığın təşkilinin, taxıl bazarının tənzimlənməsinin və taxıl məhsullarının keyfiyyətinin təmin edilməsinin ümumi qaydalarını müəyyən etməkdir.

### *Maddə 4. Taxılçılıq fəaliyyətinin obyektləri və subyektləri*

4.1. Taxılçılıq fəaliyyətinin obyektləri taxıl məhsulları və onların istehsalından, son istehlakı da daxil olmaqla, bütün mərhələlərdə bu və ya digər formada təmasda olan torpaq, texniki və texnoloji vəsaitlər, habelə köməkçi təbii və süni materiallardır.

4.2. Taxılçılıq fəaliyyətinin subyektləri taxıl məhsullarının istehsalı, tədarükü, saxlanması, daşınması, satışı, idxal və ixracı ilə məşğul olan hüquqi və fiziki şəxslərdir.

### *Maddə 5. Taxılçılıq sahəsində dövlətin vəzifələri*

5.0. Taxılçılıq sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

5.0.1. taxıl bazarının konyukturunu öyrənmək, taxıl balansını hazırlamaq, təsdiq etmək, proqnozlar vermək, taxıl bazarının iqtisadi üsullarla tənzimlənməsini həyata keçirmək;

5.0.2. taxıl istehsalının artırılması üçün məqsədli taxıl proqramları hazırlamaq, müvafiq investisiya, qiymət, kredit və vergi siyasətini həyata keçirmək;

5.0.3. taxılçılığın inkişafını və toxumçuluğun elmi təminatını stimullaşdırmaq;

5.0.4. dövlət taxıl fondu yaratmaq, onun formalaşmasını, saxlanmasını və istifadəsini təşkil etmək;

5.0.5. taxılçılıq sahəsində müvafiq normativ hüquqi aktlar qəbul etmək və beynəlxalq əməkdaşlığı inkişaf etdirmək;

5.0.6. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

### *Maddə 6. Taxıl istehsalına dövlət himayəsi*

6.1. Taxılçılığın seleksiyası və toxumçuluğu, taxıl istehsalının artırılması, məhsuldarlığının və keyfiyyətinin yüksəldilməsi dövlət tərəfindən stimullaşdırılır.

6.2. Dövlət taxıl fondunun formalaşması əsasən yerli istehsal hesabına həyata keçirilir.

6.3. Taxılın və taxıl emalı məhsullarının istehsalı, tədarükü, saxlanması, satışı, habelə taxılçılığın maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində kooperasiya və birgə fəaliyyət növləri dövlət tərəfindən dəstəklənir və müvafiq stimullaşdırma tədbirlərinin tətbiqi əsasında həvəsləndirilir.

6.4. Müasir texnologiyaları tətbiq edən taxıl istehsalçılarını kreditlə təmin etmək məqsədilə dövlət taxıl girovu sistemini təşkil edir. Taxıl girovu Azərbaycan Respublikasının girov qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

6.5. Taxıl istehsalının stimullaşdırılması məqsədilə sahənin təbii fəlakətdən və digər risklərdən sığortalanması dövlət vəsaiti hesabına aparılır. Sığortalanmaya ayrılan vəsaitin həcmi, sığortalanmanın şərtləri, habelə sığortalanan taxıl məhsullarının növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

6.6. Dövlət kənddə qabaqcıl texnika və texnologiyanın tətbiqini təmin etmək məqsədilə lizinq xidmətinin təşkili, texniki və aqrokimyəvi maddələrlə təchizat, habelə kənd təsərrüfatı texnikasının uzunmüddətli kreditə verilməsi sahəsində sahibkarlıq fəaliyyətini stimullaşdırır.

6.7. Taxıl istehsalına dövlət himayəsinin istiqamətləri və formaları, habelə taxıl istehsalının stimullaşdırılmasının və həvəsləndirilməsinin tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla müəyyən olunur.

### *Maddə 7. Taxılçılığın elmi təminatı və onun maliyyələşdirilməsi*

7.1. Azərbaycan Respublikasında taxılçılığın və toxumçuluğun elmi təminatı müvafiq elmi-tədqiqat və ali *təhsil* müəssisələri tərəfindən həyata keçirilir.

7.2. Taxılçılığın və toxumçuluğun elmi təminatı, məqsədli taxıl proqramlarının hazırlanması və dövlət taxıl fondunun yaradılması dövlət büdcəsindən və büdcədənkənar vəsaitlər hesabına maliyyələşdirilir.

7.3. Toxum istehsalında və satışında istifadə edilən taxıl sortunun patent sahibi ilə əməkdaşlıq və ya lisenziya müqaviləsinin bağlanması taxılçılıq subyektləri üçün məcburidir.

## *II fəsil. Dövlət taxıl fondu, onun yaradılması və istifadəsi*

### *Maddə 8. Dövlət taxıl fondunun yaradılması*

8.1. Fövqəladə hallarda istehlakçıların taxıl məhsullarına tələbatını ödəmək, dövlət taxıl ehtiyatlarını formalaşdırmaq, beynəlxalq öhdəlikləri yerinə yetirmək və lazım gəldikdə, daxili taxıl bazarında kəskin qiymət dəyişmələrinin qarşısını almaq məqsədilə Azərbaycan Respublikasında dövlət taxıl fondu yaradılır. Dövlət və sığorta toxum fondları dövlət taxıl fondunun tərkibinə daxil edilir.

8.2. Dövlət taxıl fondu Azərbaycan Respublikasının mülkiyyətidir və müvafiq icra hakimiyyəti orqanlarının sərəncamında olur.

8.3. Dövlət taxıl fonduna qüvvədə olan standartlara və tələblərə cavab verən taxıl məhsulları tədarük edilir.

8.4. Dövlət taxıl fondu əsasən taxıl birjası vasitəsilə yerli istehsal, zəruriyyət yarandıqda isə idxal hesabına formalaşır.

8.5. Dövlət taxıl fondunun saxlanması və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

### Maddə 9. Dövlət taxıl fonduna taxıl məhsulları tədarükünün təşkili

9.1. Dövlət taxıl fonduna taxıl məhsulları tədarükünü təşkil etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı dövlət sifarişçilərini və onların səlahiyyətlərini müəyyən edir, tədarük üçün müvafiq maliyyə vəsaitləri ayırır.

9.2. Dövlət sifarişçiləri hər il dövlət taxıl fonduna təminatlı minimum qiymətlərlə taxıl məhsulları tədarükü barədə kütləvi informasiya vasitələrində elan dərc etdirirlər və istehsalçılarla (malgöndərənlərlə) əvvəlcədən müqavilə bağlayırlar.Tədarük zamanı taxıl birjasında faktiki qiymətlər yüksək olduqda, dövlət taxıl fonduna tədarük edilən taxıl məhsullarının qiymətinin təminatlı minimum həddinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq əlavələr edilir.

9.3. Taxıl girovu sistemindən kənar müqavilə əsasında yerli istehsalçılardan dövlət taxıl fonduna tədarük edilən taxılın dəyərinin 30 faizdən az olmayan hissəsi avans qaydasında əvvəlcədən ödənilir.

9.4. Dövlət sifarişçiləri dövlət taxıl fondunun nəzərdə tutulan həcminin və çeşidinin formalaşmasına məsuliyyət daşıyırlar və hər ilin yanvar ayında fondun formalaşması və istifadəsi, habelə maliyyə, kredit və maddi ehtiyatlarının təminatı barədə müvafiq icra hakimiyyəti orqanına hesabat təqdim edirlər və hesabatı kütləvi informasiya vasitələrində dərc etdirirlər.

## III.fəsil. Taxıl bazarı

### Maddə 10. Taxıl bazarının dövlət tənzimlənməsi

10.0. Taxıl bazarının dövlət tənzimlənməsi müvafiq qaydada təsdiq edilmiş taxıl məhsullarının balansları əsasında yalnız iqtisadi üsullarla həyata keçirilir və aşağıdakıları nəzərdə tutur:

10.0.1. qiymət tarazlığının təmin olunması məqsədilə taxıl bazarına əmtəə müdaxiləsi;

10.0.2. taxıl bazarının monitorinqi, proqnozlaşdırılması və taxılçılıq fəaliyyəti subyektlərinin məlumatlandırılması;

10.0.3. taxıl bazarında haqsız rəqabətlə mübarizə və yerli istehsalçılara dövlət himayəsi;

10.0.4. taxıl məhsullarının keyfiyyətinə dair tələblərin normallaşdırılması və sertifikatlaşdırılması.

### Maddə 11. Taxıl məhsullarının idxal və ixracı

11.1. İdxal hesabına dövlət taxıl fondu üçün taxıl məhsullarının tədarükünə zərurət yarandıqda, alınası taxıl və taxıl emalı məhsullarının həcmi barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən qərar qəbul edilir və idxal əməliyyatları qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət sifarişçiləri tərəfindən həyata keçirilir.

11.2. Xarici dövlətlərdən Azərbaycan Respublikasına dövlət reyestrində qeydiyyatdan keçmiş, müəyyən edilmiş qaydada verilmiş uyğunluq sertifikatı *və fitosanitar sertifikatı* olan taxıl idxal oluna bilər.

11.3. Azərbaycan Respublikasında qüvvədə olan normativ sənədlərdə nəzərdə tutulmuş müvafiq sertifikatı olmayan taxıl məhsulları yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada sərgilərdə nümayiş, tədqiqat və sınaq məqsədilə ölkə ərazisinə idxal oluna bilər.

11.4. Taxıl məhsullarının ixracı Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq həyata keçirilir.

# IV fəsil. Taxıl məhsullarının keyfiyyətinin idarə edilməsi

## Maddə 12. Taxıl məhsullarının keyfiyyətinin təmin edilməsi

12.0. Taxıl məhsullarının keyfiyyəti aşağıdakı yollarla təmin edilir:

12.0.1. taxıl məhsullarının keyfiyyətinə dair tələblərin normalaşdırılması;

12.0.2. taxıl məhsullarının keyfiyyətinin qiymətləndirilməsinin vahid metodika üzrə müvafiq qaydada təyin edilmiş laboratoriyalarda aparılması;

12.0.3. taxıl məhsullarının sertifikatlaşdırılması;

12.0.4. taxıl emalı məhsullarının dövlət gigiyena qeydiyyatı;

12.0.5. taxıl məhsullarının keyfiyyətinə dövlət nəzarəti.

## Maddə 13. Taxıl məhsullarının keyfiyyətinə dair tələblərin normalaşdırılması

13.1. Taxılın keyfiyyətinin təmin olunması sahəsində normalaşdırma müxtəlif taxıl növlərinin istehsal, tədarük, kondisiyaya çatdırma, daşınma, saxlanma, emal və satış şərtlərini nizamlayan standartların və tələblərin müəyyənləşdirilməsidir.

13.2. Taxıl emalı məhsullarının keyfiyyətinin təmin olunması sahəsində tələblərin normalaşdırılması yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dair tələblərin normalaşdırılması qaydasında həyata keçirilir.

13.3. Taxıl məhsullarının keyfiyyətinin təmin olunması sahəsində tələblərin normalaşdırılması qaydasına əməl edilməsi bütün taxılçılıq fəaliyyətinin subyektləri üçün məcburidir.

## Maddə 14. Taxıl məhsullarının keyfiyyət göstəricilərinin qiymətləndirilməsi

14.1. Azərbaycan Respublikasında istehsal edilən və respublikaya gətirilən taxıl məhsullarının tərkibi kimyəvi, bioloji, toksikoloji və radioloji göstəricilərinə görə təhlil edilir və qiymətləndirilir.

14.2. Taxıl məhsullarının keyfiyyətinin qiymətləndirilməsi müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti tərəfindən təyin edilmiş, ixtisaslaşdırılmış laboratoriyalarda vahid metodika üzrə aparılır.

14.3. Taxıl emalı məhsulları həmçinin müvafiq icra hakimiyyəti orqanları tərəfindən dövlət reyestrində gigiyena qeydiyyatına alınır.

14.4. Keyfiyyət göstəriciləri qiymətləndirilmiş taxıl məhsullarına, habelə dövlət gigiyena qeydiyyatına alınmış taxıl emalı məhsullarına müvafiq sertifikatlar verilir.

14.5. Taxıl məhsullarının sertifikatlaşdırılması qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

### *Maddə 15. Taxıl məhsullarının keyfiyyətinə dövlət nəzarəti*

15.1. Taxıl məhsullarının keyfiyyətinə dövlət nəzarətinin məqsədi hüquqi və fiziki şəxslər tərəfindən bu məhsulların istehsalını, tədarükünü, saxlanmasını, daşınmasını, satışını, idxal və ixracını nizamlayan standartlara və tələblərə əməl edilməsini təmin etməkdir.

15.2. Taxıl məhsullarının keyfiyyətinə dövlət nəzarəti funksiyalarını öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

15.3. Taxıl məhsullarının keyfiyyətinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının aşağıdakı səlahiyyətləri vardır:

15.3.1. taxılçılıq fəaliyyətinin subyektləri tərəfindən taxıl məhsullarının keyfiyyətinə dair müəyyən olunmuş standartlara və tələblərə riayət edilməsini yoxlamaq;

15.3.2. taxıl məhsullarının istehsalı, tədarükü, saxlanması, daşınması, satışı, idxal və ixracı ilə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən taxıl haqqında qanunvericiliyə əməl olunmasını yoxlamaq;

15.3.3. müəyyən edilmiş qaydada keyfiyyətinin təyin edilməsi üçün taxıl məhsullarından nümunələr götürmək, taxılçılıq fəaliyyətinin subyektlərindən taxıl məhsullarının keyfiyyəti barədə müvafiq məlumatlar tələb etmək;

15.3.4. taxılçılıq fəaliyyətinin subyektlərinin rəsmi müraciətinə əsasən taxıl məhsullarının keyfiyyətinə və məqsədli istifadəsinə dair qanunvericiliklə müəyyən edilmiş sənədlər vermək;

15.3.5. taxıl məhsullarının keyfiyyəti sahəsində inzibati *xətalar* haqqında protokollar ~~(aktlar)~~ tərtib etmək;

15.3.6. taxıl məhsullarının istehsalı, alqı-satqısı, saxlanması, daşınması, idxal və ixracı ilə məşğul olan hüquqi və fiziki şəxslərə taxıl haqqında qanunvericiliyin pozulması hallarının aradan qaldırılması üçün icrası məcburi olan göstərişlər vermək;

15.3.7. keyfiyyət göstəriciləri standartlara və tələblərə uyğun gəlməyən taxıl məhsullarının istifadəsini qadağan etmək, onların götürülməsi,

zərərsizləşdirilməsi və ya məhv edilməsi barədə müvafiq qərarlar qəbul etmək və təkliflər vermək;

15.3.8. hüquq və fiziki şəxslərin müraciəti əsasında taxıl məhsullarının keyfiyyətini ekspertiza etmək;

15.3.9. qanunvericiliklə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

15.4. Taxıl məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamələr ilə müəyyən olunur.

# V fəsil. Taxıl haqqında qanunvericiliyin pozulmasına görə məsüliyyət və mübahisələrin həlli

## Maddə 16. Taxıl haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Taxıl haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## Maddə 17. Mübahisələrin həlli

Taxıl məhsullarının istehsalı, tədarükü, saxlanması, daşınması, satışı, idxal və ixracı, istifadəsi və keyfiyyəti barədə mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 16 iyun 2000-ci il***

***№ 898-IQ***